AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ
**BAKI BAŞ GÖMRÜK İDARƏSİ**

# SƏRƏNCAM

№ 141/016

Bakı şəhəri «27» 08 2018 il

DGK-nin 21.11.2017-ci il tarixli 100/197 saylı Sərəncamı ilə təsdiq edilmiş "Gömrük xidmətilə biznes nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamənin 1.2-ci bəndinə müvafiq olaraq aşağıda adları çəkilən BBGİ-nin əməkdaşları və sahibkarlıq subyektlərinin nümayəndələrindən ibarət BBGİ-nin rəisi yanında yaradılmış İctimai Şuranın tərkinində aşağıdakı dəyişikliklər edilsin:

İctimai Şuranın sədri:

Allahverdiyev Elçin Şamil oğlu idarə rəisinin müavini

İctimai Şuranın üzvləri:

| | |
|---|---|
| Əliyev Gündüz Yəhya oğlu | Gömrük prosedurları və ödənişləri şöbəsinin rəisi |
| Əliyev Kamran Hafiz oğlu | Qida məhsullarının rəsmiləşdirilməsi şöbəsinin rəisi |
| Koçerıgin Dmitriy Anatolyeviç | Gömrük Dəyərləndirilməsi və Risklərin idarə olunması şöbəsinin rəisi |
| Mustafayeva Ziyarət Məmməd q. | İnzibati İdarəetmənin təşkili şöbəsinin rəisi |
| Hüseynov Üzeyir Aydın oğlu | "Soliton"LTD şirkətinin direktoru |
| Rzayev Mirsəid Ağakamal oğlu | "İtal-dizayn"MMC-nin direktoru |
| Abbasov Ceyhun Həsən oğlu | "Avrora"MMC-nin direktoru |
| Həsənov İlham Ağaməsim oğlu | "Santral elektrik"MMC-nin direktoru |

II. İctimai Şuranın sədri (E.Allahverdiyev) Əsasnamədə göstərilən məsələlərin yerinə yetirilməsini təmin etsin.

III. İnzibati İdarəetmənin təşkili şöbəsi (Z.Mustafayeva) bu sərəncamın aidiyyatı üzrə göndərilməsini təmin etsin.

IY .Sərəncamın icrasına nəzarəti özümdə saxlayıram.

Baş İdarənin rəisi Kənan Məmmədov

Bakı Baş Gömrük İdarəsinin rəisi yanında yaradılmış İctimai Şuranın iclasının

PROTOKOLU

Bakı ş. 27.09.2018-ci il

İştirak etdilər: 1. Ictimai Şuranın üzvləri

Gündəlik məsələ: daxil olan malların qiymətlərinin araşdırılması barədə iş adamlarının məlumatlandırılması

Çıxışlar: İclası İctimai Şuranın sədri,BBGİ-nin rəis müavini Elçin Allahverdiyev açaraq bildirdi ki, Açıq Hökümətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 nömrəli Sərəncamının 4.2.1-ci bəndinə əsasən Dövlət Gömrük Komitəsinin "Gömrük xidmətilə biznes nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamə təsdiq edilmişdir. Bu Əsasnamənin 1.2.bəndinə müvafiq olaraq BBGİ-də əməkdaşlarımız və biznes subyektlərinin iştirakı ilə idarə rəisinin yanında İctimai Şura yaradılmış və Şuranın iş planı təsdiq edilmişdir. İş planına müvafiq olaraq hər rübün sonunda İctimai Şuranın üzvlərinin iştirakı ilə iclas keçiriləcək və gündəmdə duran aktual məsələlər,onların həlli yolları, həmçinin gömrük qanunvericiliyinə dair yeni qəbul edilən normativ sənədlər və ya onlara edilən dəyişikliklər öyrənilərək müzakirə ediləcəkdir. Bu günkü müzakirə olunacaq məsələ bəzi şirkətlər tərəfindən daxil olan malların qiymətlərinin bilərəkdən azaldılması məsələsidir.Həmin problemlə əlaqədar olaraq,E.Allahverdiyev sözü Gömrük prosedurları və ödənişləri şöbəsinin rəisi G.Əliyevə verdi.G.Əliyev gündəlikdə duran məsələ barədə iclas iştirakçılarına məlumat verərək bildirdi ki, tərəfimizdən belə neqativ hallara qarşı mübarizə aparılır, qiymətləri qəsdən aşağı salan mal sahiblərinin sənədləri araşdırılaraq onlar barəsində müvafiq tədbirlər görülür,dövlətdən gizlədilən məbləğlər hesablanaraq onların büdcəyə köçürülməsi təmin edilir.

Qərar: iclasda qeyd olunan məsələlər diqqətdə saxlanılsın, biznes subyektlərinin nümayəndələri gömrük sahəsində rast gəlinən neqativ hallara qarşı mübarizə barədə məlumatlandırılsın.

İclasın katibi: Z.Mustafayeva

Bakı Baş Gömrük İdarəsinin rəisi yanında yaradılmış İctimai Şuranın iclasının

PROTOKOLU

Bakı ş. 02.04.2018-ci il

İştirak etdilər: 1. Ictimai Şuranın üzvləri

Gündəlik məsələ: xarici ticarət iştirakçıları tərəfindən həyata keçirilən ixrac prosesinin asanlaşdırılması

Çıxışlar: iclası giriş sözü ilə ictimai Şuranın sədri,BBGİ-nin rəis müavini E.Şirinov açaraq bildirdi ki, son zamanlar Azərbaycan iqtisadiyyatının şaxələnməsinin sürətlənməsi,qeyri neft sektorunun yüksək inkişafının təmin edilməsi,ixrac və rəqabət imkanlarının genişləndirilməsi məqsədilə ölkə başçısı İ.Əliyev tərəfindən bir sıra islahatlar aparılmışdır.Bu barədə məlumat vermək üçün maliyyə-tarif şöbəsinin baş inspektoru H.Süleymanova söz verildi. O,öz çıxışında göstərdi ki, xarici ölkələrlə ticarət əlaqələrində texniki maneələrin aradan qaldırılması,təhlükəsiz və keyfiyyətli,yüksək texnologiyalı və innovativ məhsilların istehsalı xarici ölkələrdə həmin məhsullara marağı artırır.Ölkə Prezidenti tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi"ndə əlverişli biznes mühitinin yaradılması,Azərbaycanda istehsal olunan məhsulların xarici bazarlara çıxışının təmin olunması yerli qeyri-neft məhsullarının ixrac potensialının genişləndirilməsi istiqamətində müəyyən tədbirlər həyata keçirilir.Son dövrdə Azərbaycan Respublikasının dünyanın bir sıra ölkələrilə ticarət-iqtisadi əlaqələri genişlənir.Bu da öz növbəsində idxal-ixrac əlaqələrinin artmasına səbəb olmuşdur.Həyata keçirilən islahatlar nəticəsində malların ixrac prosesi xeyli asanlaşdırılmışdır.Belə ki, AR NK-nin 04.03.2016-cı il tarixli 1853 nömrəli qərarı ilə "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydalarına" dəyişikliklər edilmişdir.Bu qaydalara

əsasən ixrac prosesində tələb olunan fitosanitar,keyfiyyət və mənşə sertifikatların təqdim edilməsi tələb olunmur.Bu isə öz növbəsində xarici ticarət iştirakçılarının ixrac əməliyyatlarını həyata keçirmələrini xeyli asanlaşdırıb.

Çıxışının sonunda H.Süleymanov vurğuladı ki, ixrac əməliyyatlarının tezləşdirilməsi sahibkarların özündən asılıdır.Belə ki, onlar təqdim olunan sənədlərin düzgün doldurulmasına, ixrac edilən məhsulların sənədlərlə uyğun olmasına diqqət yetirməlidirlər, bu isə gömrük orqanları tərəfindən dəqiqləşdirilmək üçün əlavə yoxlamaların aparılmasına zəruriyyəti aradan qaldırmış olur.

Qərar: gömrük orqanlarına təqdim olunan sənədlərin düzgün doldurulmasına nəzarətin daha da gücləndirilməsinin zəruriliyi İctimai Şuranın üzvləri tərəfindən xarici ticarət iştirakçılarının diqqətinə çatdırılsın.

İclasın katibi: Z.Mustafayeva

Bakı Baş Gömrük İdarəsinin rəisi yanında yaradılmış İctimai Şuranın iclasının

PROTOKOLU

Bakı ş. 29.06.2018-ci il

İştirak etdilər: 1. Ictimai Şuranın üzvləri

Gündəlik məsələ: Gömrük bəyannamələrinin təqdim edilməsi qaydaları və müddətləri,GB ilə birgə təqdim olunan sənədlər haqqında məlumat verilməsi

İclası giriş sözü ilə BBGİ-nin rəis müavini E.Şirinov açaraq gündəlikdə duran məsələ barədə məlumat verdi. GRŞ-nin rəisi K.Əliyev DGK-nın 31.10.2014-cü il tarixli, 100/143 nömrəli Sərəncamı barədə məlumat verərək GB-lərinin doldurulması qaydalarının metodikalarının və metodiki tövsiyyləri barədə danışdı.O,öz çıxışında gömrük bəyannamələrinin doldurulması zamanı bəyannaməçilər tərəfindən buraxılan səhvləri təhlil etdi, həmçinin dövri bəyannamələrin,natamam bəyannamələrin sadələşdirilmiş bəyannamələrin doldurulması metodikası barədə məlumat verdi.

Daha sonra K.Əliyev gömrük rəsmiləşdirilməsi zamanı qarşıya çıxan çətinliklərlə bağlı sualları cavablandırdı.

Qərar: gömrük rəsmiləşdirilməsi prosesində qarşıya çıxan çətinliklərin aradan qaldırılması və sahibkarların qarşılaşdığı çətinliklərin həlli məqsədilə iş adamları ilə mütəmadi görüşlərin keçirilməsi təmin edilsin.

İclasın katibi Z.Mustafayeva